

Dünyanın bir çox ölkələrində köçkünlər var, amma bizim ölkəmizdəki köçkünlərin vəziyyəti o biri ölkələrdə yaşayanlarla müqayisəedilməz dərəcədə müsbətdir. Təbii ki, bütün köçkünlərin əsas arzusu doğma torpaqlara qayıtmaqdır. Hər dəfə dövlətimizin başçısı ilə keçirilən görüşlərdə xahiş edirdilər ki, onları öz yurdlarına qaytarsınlar. Artıq keçmiş məcburi köçkünlərin gözlərindəki nisgilə və həsrətə son qoyuldu. Bu müddət ərzində güclü iradə, yenilməzlik, dövlətə, dövlətçiliyə və ölkə Prezidentinə sədaqət nümayiş etdirən keçmiş məcburi köçkünlər doğma ata-baba yurdlarına qayıdıtmaq ərəfəsindədirlər. Dövlət başçımız xalqa müraciətində də bu məqamı xüsusi vurğuladı: "Əziz soydaşlarım, gözünüz aydın olsun, siz qayıdırsınız, biz qayıdırıq, Azərbaycan qayıdır! Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir. Bundan da böyük xoşbəxtlik ola bilərmi?!"

Üçtərəfli bəyanata əsasən, Ermənistanın öz müqəddəratını təyinetmə ilə əlaqədar bütün iddiaları qüvvədən düşüb. Bundan sonra hər şey yalnız Azərbaycan Respublikasının ərazi bütövlüyü prinsipinə əsasən həll edilir. Azərbaycan Prezidenti status-kvonu dəyişdi və artıq münaqişənin həlli şərtlərini Azərbaycan diktə edir.

# Azərbaycanın şanlı Qələbəsini rəsmiləşdirən tarixi bəyanat

***"Əziz həmvətənlər! Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış üçtərəfli bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır. Bu bəyanatı Azərbaycan Prezidenti, Rusiya prezidenti və Ermənistan baş naziri imzalamışlar". 2020- ci il noyabrın 10- da Prezident İlham Əliyevin Azərvbaycan xalqına müraciətində səsləndirdiyi bu şad xəbər hər bir soydaşımızı, dünya azərbaycanlılarını qəlbən sevindirdi. Bu, Ermənistanın 30 illik işğalçılıq müharibəsinin sona çatdığını xəbər verirdi. Eyni zamanda, Azərbaycanın şanlı Qələbəsinin müjdəsi idi. Həmin gün imzalanmış bəyanat Ermənistanın təslim olduğunu rəsmən təsdiqləyən sənəd idi.***

İkinci Vətən müharibəsində Ermənistan ordusu Azərbaycan Silahlı Qüvvələri qarşısında cəmi 44 gün tab gətirə bildi. Bu müharibə Azərbaycanın tam qələbəsi və Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Bu dövr ərzində 300-ə yaxın kənd, 5 şəhər, 4 qəsəbə, çoxsaylı strateji yüksəkliklər azad olundu. Düşmənin əksər texnikası məhv edildi, canlı qüvvəsinə ciddi zərbə vuruldu. Ermənistan ordusu darmadağın edildi, atəşkəs ərəfəsində artıq vahid komandanlığı olmayan, müqavimət qabiliyyətini itirmiş, başıpozuq dəstələri xatırlatdı.

Azərbaycan Şuşa şəhərini, onun ardınca bir gündə 70-dən artıq kəndi, 8 strateji yüksəkliyi azad etməklə, Ermənistanı diz çökdürdü və kapitulyasiyaya məcbur etdi. Ermənistanın 30 il davam edən danışıqlar prosesində qeyri- konsrtuktivliyi, münaqişənin dinc yollarla həllindən boyun qaçırması, qonşu dövlətlərin ərazisi hesabına "böyük Ermənistan" yaratmaq iddiasından əl çəkməməsi , necə deyərlər, öz başında çatladı. İşğalçı ölkə bu illər ərzində nail olmaq istədiklərinin heç birini əldə edə bilmədi, Dağlıq Qarabağın statusunun müəyyən edilməsi məsələsi, o cümlədən status- kvo tarixin arxivinə getdi, keşmiş Dağlıq Qarabağda yeni erməni dövlətinin yaradılması planları alt-üst edildi.

Sentyabrın 27-dən başlanan müharibə sonda Azərbaycanın tam qələbəsi ilə nəticələndi. Danışıqlar prosesinin müxtəlif mərhələlərində müzakirə olunan layihələrin Azərbaycan üçün ən sərfəli variantı belə hazırda ölkəmizin əldə etdiyi üstünlüklə müqayisə edilə bilməz. Bütün bunlar noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatda öz əksini tapıb.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi bir daha sübut etdi ki, ölkəmizin razılığı olmadan keçmiş Dağlıq Qarabağla bağlı heç bir qərar qəbul edilə bilməzdi.

Ermənistan kapitulyasiya aktını imzaladıqdan sonra ərazisi xeyli böyük olan Kəlbəcər, Ağdam və Laçın rayonları şəhid vermədən, qan tökülmədən geri qaytarıldı. Məcburi köçkünlərin geri qayıtması ilə demoqrafik balans tamamilə Azərbaycanın xeyrinə dəyişəcək. Doğma ata- baba torpaqlarından didərgin salınmış soydaşlarımızın əvvəlki yurdlarına qaytarılması bəyanatda da öz əksini tapıb. Bəyanatın 7-ci maddəsində qeyd edilir: "Daxili məcburi köçkünlər və qaçqınlar Dağlıq Qarabağın ərazisinə və ətraf rayonlara BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı Ofisinin nəzarəti altında geri qayıdır".

Göründüyü kimi, keçmiş məcburi köçkünlər doğma yurdlarına beynəlxalq təşkilatların nəzarəti altında qayıdacaqlar. Möhtərəm Prezidentimiz Azərbaycan xalqına 10 noyabr tarixli müraciətində də bu məsələni diqqətə çatdırdı. Dedi ki, son 17 il ərzində köçkünlərlə çoxsaylı görüşlərində, onlar üçün yeni evlərin təqdimat mərasimlərində ildən-ilə onların ümidlərinin azaldığını görürdü. Məcburi köçkünlər onlara yaradılmış yaxşı şəraitə görə təşəkürrülərini bildirsələr də, öz yurdlarına qayıtmaq arzusunda olduqlarını açıq şəkildə deyirdilər. Keçmiş məcburi köçkünlər üçün Azərbaycanda görülən işlər heç bir başqa ölkədə görülmür.

Dövlətimizin başçısı dəfələrlə bəyan etmişdir ki, biz beynəlxalq hüquqa hörmətlə yanaşırıq, beynəlxalq hüququ, ədaləti müdafiə edirik və BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra edirik. "Bizim bütün addımlarımız beynəlxalq hüququn norma və prinsipləri əsasında, əxlaq əsasında görülüb və bütün addımlarımız bu istiqamətdə atılıb" – deyən möhtərəm Prezidentimiz intiqamımızın düşməndən, işğalçıdan alındığını bildirdi. Azərbaycan Ordusu işğalçı, quldur Ermənmistan ordusundan fərqli olaraq, mülki vətəndaşlara atəş açmadı: "Düşmənin məskunlaşdığı, gizləndiyi şəhərlərdə böyük dağıntılar yoxdur. Çünki biz mülki obyektlərə atəş açmamışıq. Bax, bizim fərqimiz bundan ibarətdir".

Bu il yanvarın 11- də Moskvada Rusiya Prezidenti Vladimir Putin, Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın baş naziri Nikol Paşinyan arasında üçtərəfli görüş keçirilməsində əsas məqsəd 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatın reallaşdırılmasının gedişini, mövcud problemlərin aradan qaldırılmasına və regionda dinc həyatın qaydaya salınmasına dair sonrakı addımların birlikdə müzakirə olunması idi.

Moskva görüşü Vətən müharibəsində Azərbaycanın tarixi Zəfəri və Ermənistanın hərbi kapitulyasiyasından sonra üç ölkə liderinin ilk birbaşa danışıqları idi. Rusiya tərəfi üçtərəfli razılaşmalara əməl olunmasına görə Azərbaycan tərəfinə minnətdarlıq ifadə etmiş, görüşün yekunu olaraq bölgədəki vəziyyətin inkişafına dair birgə bəyanat imzalanmışdı. Ermənistan tərəfi üçtərəfli bəyanatın qarşıya qoyduğu vəzifələri icra etməyə məcburdur.

Hazırda işğaldan azad edilmiş ərazilərdə aparılan tikinti və abadlıq, "Böyük Qayıdışa" hazırlıq işləri üçtərəfli bəyanatın töhfəsidir. Bu, Azərbaycanın sanlı Qələbəsini, Ermənistanın isə məğlubiyyətini təsdiqləyən rəsmi sənəddir.

***Mehman İSMAYILOV,***
***politoloq***